**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXV buraxılış, Bakı, 2024
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXV выпуск, Баку, 2024*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXV edition, Baku, 2024*

**UOT 78**
**DOI: 10.52094/3005-9941.45.2024.023**

**Sevinc Əmiraslan qızı Balabəyova**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**dissertant**
**ORCID: 0000-0003-1497-6664**
**E-mail: sevincbalabeyova@mail.ru**

# QƏRBİ AZƏRBAYCAN – "ÇƏMBƏRƏK/DABAN DURMA", "ÇƏMƏNKƏND" YALLILARININ ÖZƏLLİKLƏRİ

**Xülasə:** İrəvan xanlığı Azərbaycan tarixinin və dövlətçiliyinin ayrılmaz tərkibidir. Mədəni sərvətimiz, xalq rəqs janrının qədim növü sayılan yallılar milli varlığımızın, kimliyimizin təcəssümüdür.

Keçmişin dövr mərhələləri, tədricən dəyişən insan düşüncəsi, hisləri və zəruriyyətdən meydana gələn mistik inanclar oyun havasında izlərini qoymuşdur.

Məqalədə İrəvan ərazisində yaranmış yallı rəqslərindən "Çəmbərək/Daban Durma" və "Çəmənkənd" əhatəli məzmunda təhlil hədəfinə cevrilmişdir.

Bununla yanaşı tədqiqatçı R.Bəhmənlinin yallıları ustad ifaçılardan neçənci ildə nota köçürdüyü və hansı kitablarda tanıtdığı barədə bilgi paylaşılır. Nümunələrin forması, hissələrin, bölümlərin quruluşu, tempi, ölçüsü, mayəsi, məqamı, yönəlmə, modulyasiya, diapazonu, fərdiliyinə aid irəli sürülən cəhətlərin səlis izahı üçün not misalları və sxemlər göstərmişik.

**Açar sözlər:** "Çəmbərək/Daban Durma", "Çəmənkənd", məqam, mayə, rast, şur, xanə, ibarə, cümlə, variantlı

Yallılar ötən zamanın təsirini daşıyıb, ibtidai və sonrakı baş vermiş hadisələrin şahididir. Bütün sadalananlar oyun havasının təkmilləşməsinə, mürəkkəbləşərək vahid hala düşüb sabitləşməsinə zəmin yaratmış

Biz araşdırmada musiqişünas-alim R.Bəhmənlinin "Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları" başlıqlı toplusundakı "Çəmbərək/Daban Durma" və "Çəmənkənd" not nümunələrinə əsaslanmışıq [1].

Tədqiqatçı İrəvan zonasına məxsus yallı havalarını obalarından didərgin salınmış, yurd-yuvalarından məcburi çıxarılılmış vətəndaşlarımızın, informatorların sayəsində notlaşdırmışdır.

"Azərbaycan yallıları" məcmuəsində [2]; "Azərbaycan qədim rəqs havaları" monoqrafiyasında işıqlandırıb [3].

"Çəmbərək/Daban Durma" (№ 6) və "Çəmənkənd" (№ 7) tərəfimizdən ilk dəfə elmi işimizdə incələnən 43 Qərbi Azərbaycan yallılarındandır.

Oyun havalarının forma və quruluşu, məqam-tonal, intonasiya münasibətləri, yönəlmə, modulyasiya, hissələrin oxşar, zidd xüsusiyyətləri acıqlanıb.

İki hissəni özündə cəmləyən yallını R.Bəhmənli 2007-ci ildə, Bakıda

şəhərində zurna ifaçısı Musa Məmməd oğlu Bayramovun səsləndirməsindən nota alıb.

*"Çəmbərək – Qərbi Azərbaycanın Göyçə mahalı və Qaraqoyunlu dərəsi ərazisində rayondur. 1920-ci ilin sonuna kimi Gəncə (Yelizavetpol) quberniyasının Qazax qəzasının tərkibində olmuş bu rayon sovet hakimiyyəti illərində Göyçə mahalının tərkibinə daxil edilmişdir. Yallıya verilmiş "Daban durma" adı isə onun xoreoqrafik oyun qaydası ilə əlaqədardır"* [1, s. 91].

"Çəmbərək/Daban Durma" I hissə: Andante tempində, 2/4 ölçülü, "fa"[1] mayəli rast məqamına da və variasiyaya oxşar formadadır.

Məqam-tonal ardıcıllığı: "fa" rast.

Diapazonu: böyük seksta (b.6) (I oktavanın do və lya səsi) həcmindədir.

Yallı quruluşuna görə araşdırmaya cəlb etdiyimiz digərlərindən nömrələrdən fərqlənir. Belə ki, dörd xanəli tək cümlə (a) musiqisi variantlı şəkilində yenilənir. Təkrar sayı dörddür. Hər parça keçidinin yekunu eyni tam kadansla bitir. Birinci melodiyada (a) tək sərbəst motiv xanələrdə sıralanaraq eşidilir. Ancaq, dördüncü xanədə tam kamil kadansla təsdiqlənir.

**Nümunə № 1.**




Cümlənin inkişafı üç pillə arasında əksin tapır (mayə, mayənin üst aparıcı tonu və mayənin tersiyası). Musiqi materialının axırında mayəyə alt aparıcı ton vaistəsilə tam kadans əhval-ruhiyyəsi köklənir. Parçanın ilk dəyişkənliyində ($a_1$) mayədən alt kvartalara sıçrayışlar və sonra dörd onaltılıqların ləpəvari gəzişmələri diqqət çəkir.

**Nümunə № 2.**




Növbəti variantlılıqda ($a_2$) melodiya fikir onaltılıq pauzayla başlayaraq sinkopalaşır, həmçinin mayədən alt kvartaya kəskin hərəkətlərlə yadda qalır.

Yeni bicimə bürünən üçüncü ($a_3$) cümlə əvvəlindəki sinkopa musiqi düzümünü təzələyir. Aşkarladığımız dəyişkənliklər zurna ifaçısının peşəkarlığının və bədii yanaşmasının nümayişidir.

Yönəlmə və modulyasiya yoxdur.

"Çəmbərək/Daban Durma" I hissənin təhlil sxemi:

| a | $a_1$ | $a_2$ | $a_3$ |
|---|---|---|---|
| $(4_x)$ | $(4_x)$ | $(4_x)$ | $(4_x)$ |

“Çəmbərək/Daban Durma” II hissə: Vivo tempində, 6/8 ölçülü, “fa”$^1$ mayəli rast məqamı üzərində qurulub və period formasındadır.

Məqam-tonal ardıcıllığı: “fa” istinadlı rast.

Diapazonu: xalis kvadrat (x.4) (I oktavanın mi və lya səsi) həcmindədir.

Yallı qoşa dörd xanədən ($a+a_1$) ibarət təkrar quruluşlu, kvadrat period çərçivəsindədir.

I hissədən seçilərək dörd xanəlik parça (a) iki dəfə variantlılıqla reallaşır. Onlar müxtəliflik daşımayan kadansla tamamlanır. Melodik xəttin birinci, dördüncü xanələrində musiqi qüvvətli, ikinci, üçüncüdə isə zəif zərbəyə düşür.

**Nümunə № 3.**




Digər cümlə də ($a_1$) yenilənərək keçir. Cüt parçada ($a+a_1$) ilk ibarə xanələri parçalanmış, ikincidə cəmləşmişdir. Məzmun gedişatına nəzər yetirsək görərik ki, hər melodik ifadə qoşa ibarəlidir və öncəki sual, sonuncu cavab, yekunlaşdırıcı xarakterdədir.

“Çəmbərək/Daban Durma”nın I hissəsi mayədən alt kvartaya sıçrayışlarla aktivdir. Artıq II hissədə həmin hərəkətlilik mövcud deyil. Səbəb: rəqs çox cəld tempdədir və texniki çətinliyi ilə əlaqədardır.

Yönəlmə və modulyasiyayla qarşılaşmırıq.

“Çəmbərək/Daban Durma” II hissənin təhlil sxemi:

| a | $a_1$ |
|---|---|
| $(4_x)$ | $(4_x)$ |

“Çəmənkənd”

İki hissəni özündə ehtiva edən yallını R.Bəhmənli 2007-ci ildə, Bakı şəhərində zurna ifaçısı Musa Məmməd oğlu Bayramovun səsləndirməsindən nota alıb.

*“Rəqsə yarandığı məkanın, İrəvan qəzasında Qarabağlar (1948-ci ildən Vedi rayonu) rayonunun inzibati ərazisinə daxil olan kəndin adı verilmişdir. Bu yallı havası Naxçıvanda “Çəmənli” adı ilə tanınmaqdadır”* [1, s.91].

“Çəmənkənd” I hissə: Andante tempində, 2/4 ölçülü, “re”$^1$ mayəli şur məqamı üzərində qurulub və variasiyaya oxşar formadadır.

Məqam-tonal ardıcıllığı: “re” şur.

Diapazonu: böyük septima (b.7) (I oktavanın do və si səsi) həcmindədir.

Yallıda dörd xanəli tək musiqi materialı xeyli sayda dəyişik tərzdə eşidilir. İlk cümlə iki-iki xanəli ibarəlidir və axırıncı parça əvvəlkindən bir pillə bəmə enərək, sanki dialoq münasibətini sərgiləyir. Vurğuladığımız ənənənə on yeddinci xanəyə kimi qalır. Melodiya dörd dəfə variantlı sıralanır.

On yeddinci xanədən faktura saxlanaraq ibarə musiqisi bir pərdə zilləşir.

Sonra ikinci, üçüncü ibarələr pillə-pillə aşağı sekvensiyalıqla mayəyə qayıdır.

Tamamlanmada sekvensiyalıq müəyyən qədər yenilənərək təkrarlanır.

İlk dörd ifadənin bütün keçidlərindəki ibarə parçası xalis kvarta yuxarı (2+2) bir, cümlə düzümündən etibarən ($a_4$) kvinta intervalına doğru sıçrayışla iki dəfə sekvensiyalıq (3+3) melodiyanı altı xanəyə çatır.

**Nümunə № 4.**




Musiqi fikrindən ($a_4$) başlayaraq cüt xanəlik ibarə xətti bəm istiqamətə ləpəvari sekvensiyalıqla "re" mayəli şurda bitir. On doqquzuncu və iyirminci xanələrdə birinci sekvensiya zamanı "mi" segaha yönəlir.

**Nümunə № 5.**




Habelə, iyirmi beşinci və iyirmi altıncı xanələrdə də eyni yönəlmə xatırladılır.

İbarələr qoşa xoreyli motiv yerləşir sonuncu öncəkini yekunlaşdırır. On yeddinci xanədən rastlaşdığımız "fa" səsindəki trelin "sol" bemol qeydi ifaçısının yallıya qatdığı gözəlliklə bağlıdır.

"Çəmənkənd" I hissənin təhlil sxemi:

| a | $a_1$ | $a_2$ | $a_3$ | $a_4$ | $a_5$ |
|---|---|---|---|---|---|
| ($4_x$) | ($4_x$) | ($4_x$) | ($4_x$) | ($6_x$) | ($6_x$) |

Oyun havasında "Çəmbərək/Daban Durma"dan fərqli trellə bərabər, mordent bəzək işarəsindən istifadə olunub.

"Çəmənkənd" II hissə: Vivo tempində, 6/8 ölçülü, "re"[1] mayəli şur məqamı üzərində qurulub və sadə iki hissəli formadadır.

Məqam-tonal ardıcıllığı: "re" istinadlı şur.

Diapazonu: böyük sekista (b.6) (I oktavanın do və lya səsi) həcmindədir.

II hissə qismən I-yə yaxındır. Məzmununda, kvadratlıqda və cümlələrin variantlı verilməsində özünü göstərir.

I bölüm (A) iki dörd xanəli, təkrar quruluşu, kvadrat period çərçivəsindədir.

Parçalar ($a+a_1$), cüt ibarəlidir və ikinci əvvəlkinə cavab rolunu daşıyır. İlk melodik materialda mayədən üst kvartaya edilən sıçrayışın qoşa xanəlik davamı, digər ibarədə əsas tondan tersiyaya sekvensiya üsulu ilə həyata keçirilir.

Cümlələr arasındakı seçicilik ($a_1$)-rin ikinci ibarəsində musiqi fikri bir pillə aşağı düşərək mayənin alt aparıcı tonundan, mayənin tersiyasıına hərəkətliliylə periodu tamlığını təsdiqləyir.

**Nümunə № 6.**

**Andante**



II bölüm (B) parçaları ($b+b_1$) xanələri sayca çoxdur. Yəni mayədən, üst kvintaya sıçrayışlar nədəniylə əsas tona enmək üçün üç ədəd cüt xanəli ibarəylə gerçəkləşir.

**Nümunə № 7.**

**Andante**



II bölümün axırıncı melodiyasında ($b_1$) həmin prinsip variantlı şəkildədir. Üç ibarəli, altı xanəlidir.

İfaçı kifayətlənməyərək II bölümün musiqisini yenidən təkrarlayır.

“Çəmənkənd” II hissənin təhlil sxemi:

| A | B | |
|---|---|---|
| ($a+a_1$) | ($b+b_1$) | ($b+b_1$) |
| ($4_x+4_x$) | ($6_x+6_x$) | ($6_x+6_x$) - tamamlayıcı təsdiq |

Nəticədə biz məqalədə ilk elmi işimizdə araşdırdığımız “Çəmbərək/Daban Durma”, “Çəmənkənd” Qərbi Azərbaycan yallılarının forma və quruluşu, məqam-tonal, intonasiya, daxilindəki yönəlmə, modulyasiya həmçinin fərdi amillərini üzə çıxarıb, not misalları ilə, səlis izahda təqdim etmişik.

**Ədəbiyyat siyahısı:**

1. Bəhmənli R.B. Erməni plagiatına məruz qalmış Qərbi Azərbaycan yallıları. Bakı, “Elm və zəka”, 2022, 112 s.
2. Bəhmənli R.B. Azərbaycan yallıları. Bakı, “Mütərcim”, 2018, 140 s.
3. Bəhmənli R.B. Azərbaycan qədim rəqs havaları. Bakı, “Şərq-Qərb”, 2021, 672 s.

**Севиндж Амираслан кызы Балабекова**

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ЯЛЛЫ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА – «ЧАМБАРАК/ДАБАН ДУРМА», «ЧАМАНКАНД»

**Резюме:** Иреванское ханство является неотъемлемой частью истории и государственности Азербайджана. Яллы, считающийся нашим культурным богатством, древний жанр народного танца, является воплощением нашего национального существования и самобытности.

Этапы прошлого, постепенно меняющиеся человеческие мысли, чувства и мистические убеждения, возникшие по необходимости, оставили свои следы в атмосфере танца

В статье всесторонне проанализированы «Чамберак/Дабан Дурма» и «Чаманкенд» из танцев Яллы, зародившихся в области Иреван.

В то же время в научных трудах Р.Бахманли сообщается информация о том, какие мастера-исполнители переписывали яллы, о датах зарождения и письменных источниках о древнем танце. В статье в нотных образцах, предоставлены примеры обозначений и схемы для наглядного пояснения предлагаемых аспектов, связанных со строением частей, разделов, темпом, размером, плавностью, ладах, отклонениями, модуляций, диапазоном, индивидуальностью.

**Ключевые слова:** «Чамберак/Дабан Дурма», макам «Чаменкенд», Майк, раст, шур, такт, фраза, предложение, вариация

**Sevinj Amiraslan kızı Balabejova**

## CHARACTERISTIC FEATURES OF YALLİ OF WEST AZERBAIJAN - "CHAMBARAK/DABAN DURMA", "CHAMANKAND"

**Summary:** The Iravan Khanate is an integral part of the history and statehood of Azerbaijan. Considered to be our cultural treasure, Yalli, an ancient genre of folk dance, is the embodiment of our national existence and identity.

The stages of the past, the gradually changing human thoughts, feelings, and mystical beliefs that arose out of necessity, left their traces in the atmosphere of the ancient dance.

The article comprehensively analyzes the Yalli “Chamberak/Daban Durma” and “Chamankend” that originated in Iravan.

At the same time, the scientific works of R. Bakhmanli provide information about which master performers copied the yalli, about dates, and books about the ancient dance. The article provides examples of notation and diagrams for a visual explanation of the proposed aspects related to musical examples, the structure of parts, sections, tempo, size, smoothness, modes, deviations, modulation, range, and individuality.

**Key words:** “Chamberak/Daban Durma”,makam “Chamenkend”, Mike, rast, shur, tact, phrase, sentence, variation

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.05.2024**